


# Şəhid məktəb direktorunun xatirə kompleksi açılıb

Vətən müharibəsi başlayanda minlərlə Azərbaycan övladı kimi, Elvin İmaməliyev də sakit dayana bilmədi. O da torpaqlarımızın düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmək üçün könüllülər sırasına qatıldı. Direktoru olduğu Ağstafa şəhər 1 saylı tam orta məktəbdən birbaşa cəbhəyə yollandı.

Həmin günlər Füzuli, Cəbrayıl, eləcə də Şuşa şəhəri uğrunda gərgin döyüşlər gedirdi. Azərbaycan əsgərlərinin sıralarında Elvin də var idi. Lakin o, Şuşanın azad edilməsini görə bilmədi, gərgin keçən döyüşlərin birində qəhrəmancasına şəhid oldu. Ölümündən sonra Elvin İmaməliyev "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edildi.

Həmyerliləri və vaxtilə direktoru olduğu məktəbin kollektivi Elvini unutmur, onun qısa, lakin mənalı ömür yolunu gənc nəslə nümunə kimi göstərirlər. Bu günlərdə isə şəhidin vaxtilə direktor olduğu məktəbdə onun şərəfinə xatirə kompleksinin açılışı olmuşdur. Açılış mərasimində rayon rəhbərliyi, şəhidin ailə üzvləri, döyüş yoldaşları, qazilər, ictimaiyyət nümayəndələri, eləcə də təhsil işçiləri iştirak etmişlər.

Elvin İmaməliyev 1989-cu il mayın 9-da Ağstafa rayonun Qırılı kəndində anadan olmuşdur. 2019-cu ildə direktorların işə qəbulu üzrə müsabiqəyə qatılmış və yüksək bal toplayaraq Ağstafa şəhəri 1 nömrəli tam orta məktəbinə direktor təyin edilmişdir. O, gənc direktor kimi işgüzarlığı və təşəbbüskarlığı ilə tanınırdı.

Şəhidin atası Elsevər İmaməliyev deyir ki, Elvin Vətənini, torpağını, dövlətini çox sevirdi. Bu sevgini şagirdlərinə də aşılayırdı. Hər zaman şagirdlərinə vətənpərvərlik hissi aşılayırdı. Evdə isə iki oğul böyüdürdü. Evə gələndə övladları onu əllərinə bayraq alıb "Qarabağ Azərbaycandır!" deyərək qarşılayırdılar. Elvinin həyat yoldaşı Əsmər deyir ki, həmin bayraqlar indi də uşaqlarının əlindən düşmür.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 21 oktyabr.- S.4.